# Ermənilİyin bəşəriyyətə xəyanəti

Sərdərabad yaşayış məntəqəsində salınmış Ermənistan AES-in işə düşməsi, fəaliyyət dairəsinin genişlənməsi regionda çox ciddi bir, baş verəcək fəlakətin başlanğıcından xəbər verirdi. Paralel olaraq keçmiş ittifaqın sərhədlərində biri-birindən güclü nüvə tədqiqat mərkəzləri açılır, Atom Elektrik Stansiyaları üçün ərazilər ölçülüb-biçilir, yerlər ayrılırdı. Amma fakt bu idi ki, AES-lə bağlı bütün illüziyalar əriyib gedir, insan beynində dinc məqsədlər üçün qurulması nəzərdə tutulan nüvə mərkəzləri, qorxulu zona kimi xəritələrə düşürdü. Belə bir vaxtda Rusiya Federasiyasının prezidenti ölkənin Baş Kəşfiyyat İdarəsində nüvə tədqiqatı ilə məşğul olan generallarla, kvant fizikası istiqamətində dissertasiya işləyən alimlərlə görüşündə isə dünyaya belə bir mesaj göndərdi: Atom Elektrik Stansiyalarının nüvə tullantılarından kiçik "Çirkli bombalar"ın düzəldilməsi adiləşir. "Əl-Qaidə" terrorçularının dağıdılmasından sonra, aparılan tədqiqatlarda və Bin-Ladenin "Tora-Tora" terror yuvasında tapılan sənədlərdə açıq-aşkar qeyd olunurdu ki, terror dəstələri üzvləri artıq AES-lərin nüvə tullantılarından istifadə edərək, "Çirkli bombalar"ın istehsalına başlayıblar. Həmin AES-lərin içərisində Ermənistanın Metsamor AES-nin adı çəkilir. Artıq bir neçə beynəlxalq sənədlərdə, simpozium və yığıncaq materiallarında Ermənistanda Metsamorun — AES-in nüvə tullantılarından istifadə edərək "Çirkli bombalar"ın istehsalı və satışı davam edir. O da vurğulanır ki, erməni çirkli bombaları Cənubi Amerikanın terror təşkilatlarına, digər terror mərkəzlərinə satılır.

Aparılan tədqiqat və sorğuya görə, silah alverçilərinin Qara bazarında ermənilər üstünlük təşkil edir. Rusiya Federasiyasının Ermənistanın Razdan sənaye müəssisəsinin öhdəliyə götürülməsi və özəlləşdirilməsi məsələni bir az da dərinləşdirirdi. Razdanda ruslar Avtomat Kalaşnikov zavodunu (2015-ci ildə) işə saldılar. Razdandakı Avtomat Kalaşnikov zavodu artıq (2016-cı ilin iyulun 12-dən etibarən) Ermənistanın "Nüvə Proqramı"nın tərkib hissəsinə çevrildi.

Təəssüf ki, bütün bunlar durmadan genişlənir. Məhz buna görə də ölkə başçısının Türkiyədəki çıxışında məsələ sərt qoyuldu: Ermənistan AES-in nüvə tullantıları Azərbaycanın işğal olunmuş ərazilərində basdırılmaqla yanaşı, həmin tullantılardan istifadə edilərək, Razdan silah zavodunda NATO ölkələri üçün tərkibində nüvə tullantısı olan güllələrin istehsalına başlanılıb. Həmin güllələrin bir qismi işğal olunmuş Azərbaycan torpaqlarında sınaqdan çıxarılır.

Biz isə hələ də susuruq. Təəssüflər olsun ki, ermənilərin bu fəlakəti ilə bağlı tədqiqatlar, sorğular və araşdırmalar aparılmır. Halbuki, istənilən ölkənin qoşun kontingentində, əsgərlər arasında artıq, kütləvi hal alan xərçəng xəstəliyinin yayılmasına səbəb nüvə tullantılarından hazırlanmış güllələr və çirkli bombalardır.

Apardığımız tədqiqatlarda erməni separatçılarının "Nüvə proqramı"nı araşdırmaqla ciddi nəticələr əldə etmişik. Hansı ki, bu nəticələr sabahkı fəlakətlərdən xəbər verir. Xatırladaq ki, belə xəbərdarlığı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hələ, 2014-cü ildə Haaqada keçirilən (24-26 mart) Nüvə sammitində etmişdi.

Beynəlxalq sənədlərə görə, Ermənistan AES-in birinci enerji bloku 1976-cı ilin dekabrında, ikinci enerji bloku isə 1980-ci ilin yanvarın 5-də işə düşdü və onun iş rejimi 2010-cu ildə başa çatmalı idi. Bu günədək Metsamor AES-də analoqu olmayan, dünyanı həyəcana gətirən hadisələr baş verdi. Lakin AES bağlanmadı... Əksinə, əlavə olaraq 2016-cı ilədək... Vaxt verildi. "İstehsal olunan" nüvə tullantıları erməni terrorçuları tərəfindən Qara bazara çıxarıldı. Nüvə tullantıları kütləvi şəkildə işğal olunmuş ərazilərimizdə basdırıldı və bu indi də davam edir.

Araşdırma zamanı məlum oldu ki, dünyanın ən mötəbər nüvə araşdırmaları ilə məşğul olan alimləri "Ermənistanın nüvə proqramı"nda iştirak edir. Bizim əlimizdə artıq bu bədnam və işğalçı proqramını alt-üst edən, onu BMT kürsülərinə qədər çəkib aparan kifayət qədər materiallar var. Və bu sənədlərlə Ermənistanı Beynəlxalq Məhkəməyə vermək mümkündür

Qeyd edim ki, işğal olunmuş Dağlıq Qarabağ ərazilərindəki erməni qoşun kontingentinin arasında yüksək hərbi təlim və təhsil görmüş rus əsgərləri də var. Bunların 79 nəfəri zabitdir, 16 nəfəri 2-ci motoatıcı briqadada (Qaraxanbəyli), 19 nəfəri 538-ci alayda (Ağdaban)... xidmət edib. Məlumata görə, işğal olunmuş ərazilərimizdə 2193 nəfər Ermənistan MN-nin qeydiyyatındadır. Orduya çağırılmış bu adamların hamısı Ermənistanın müxtəlif yaşayış məntəqələrindəki hərbi komissarlıqlarda qeydiyyatdan keçib (bax: "ASUN" (Erevan) İnformasiya agentliyinin məlumatı. 2010, XII).

Araşdırmalarımıza görə, Ermənistanda yaradılmış "ərəb xristianlarından ibarət ilk könüllü dəstə" Azərbaycan torpaqlarının işğalında, təbii sərvətlərin üçüncü ölkəyə ötürülməsində aktiv rol oynayıblar. Qarabağın yandırılmasında iştirak ediblər. Tərkibində Livan, Misir, İordaniya, Suriya, İraq, Əlcəzair, Səudiyyə Ərəbistanı, Küveyt... könüllüləri olan silahlı dəstənin Qarabağ torpaqlarında törətdikləri cinayətləri hələlik tam açıqlamaqda çətinlik çəkirik. Amma araşdırmalar zamanı məlum olub ki, Əyman Əz-Zavahiri və Midhət Ömər Livandan gəlmiş Mahmud Ənsarla (keçmiş Livan zabiti) Xocalı faciəsində bilavasitə iştirak edib ("Ararat". Yerevan, 14 aprel 1994-cü il. E.Ambarsumyanın "Qan qardaşı" yazısı). Misirli həkim Əyman Əz-Zavahiri Qətərin "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibədə Ermənistanın Zod yaşayış məntəqəsində xristian ərəblər üçün təlim düşərgəsi yaradıldığını və bu təlim düşərgəsinin 1994-cü il iyulun 5-də Laçın rayonu ərazisinə köçürüldüyünü qeyd edir. Dağlıq Qarabağda olmuş Ayətulla Hacı Mir Hadi Əsgərzadəyə istinadən "Cümhuriye islami" qəzeti yazır: "... Kəlbəcərdə, Şuşada, Ağdamda, Qubadlıda, Cəbrayılda dağıdılan müsəlman qəbiristanlıqları dinc dövrdə, yeni müharibədən sonra dağıdılıb. Müsəlman ləyaqəti təhqir olunub. Lakin Kəlbəcər yaşayış məntəqəsinin təqribən 10 km-də yerləşən Zəylik kəndində bir-birinin yanında doqquz qəbir gördük. Bu qəbirlər təzə salınmışdı. Orada "Əfqan ərəbləri" dəstənin üzvləri dəfn olunmuşdu. Bu haqda bizə Kəlbəcərdə erməni kilsəsi tikən iranlı fəhlələr məlumat verdilər...".

Araşdırmalarımıza görə, "Suxoy" hərbi-sənaye kompleksinin Novosibirsk, İrkutsk, Komsomolsk-Amur... mərkəzlərində artıq, 31 nəfər milliyyətcə erməni alimi, mütəxəssisi çalışır. Burada "Krasnopol" adlı nüvə başlıqlı mərmi də istehsal olunur ki, bunun da 180 ədədi 2011-ci il mayın 26-dan 2018-ci ilin dekabrın 25-dək Ermənistana və Xankəndinə daşınıb.

Erməni politoloqu Qayane Sarmakeşyan isə iddia edir: "...Ermənistan qatı düşmənlər əhatəsindədir - Türkiyə, Azərbaycan... Bəli, bu çox ciddidir. Eyni zamanda, bizi hər zaman dəstəkləməyə hazır olan iki güclü, qüdrətli müttəfiqimiz var - Rusiya və İran... Stabil və firavan Ermənistan onların maraqları dairəsindədir..." ("Artsax" qəzeti-2012, II-25, təkrar çap). Araşdırmalarımıza görə, erməni terror təşkilatlarının Dağlıq Qarabağ istiqamətində nəzərdə tutduqları 28 səhifəlik "strateji tədbirlər planı"na 16 səhifə də əlavə edildi (2019-cu il). Terrorçular bu dəfə DQ-nin işğal olunmuş ərazilərində, xüsusən Xocalıda öz məqsədlərini dörd istiqamətdə yekunlaşdırdılar. Bu da işğal olunmuş Dağlıq Qarabağ, eləcə də Azərbaycanın digər ərazilərində terrora qızğın yeni başlanğıc idi.

1. Nüvə terrorizmi (Həsənriz, Ağdaban, Kuropatkin, Xanabad);
2. Bioloji terrorizm (Kiş, Aşağı Veysəlli, İstisu);
3. Kimyəvi terrorizm (Havaslı, Vejnəli);
4. Kompüter terrorizmi (Şuşa, Xankəndi) (Bax: Q.Kristensen. "Unudulmuş bombalar". "Vlast" jurnalı (2017-ci il, s.133).

Nüvə terrorizmi ilə bağlı ABŞ-MKİ-nin ekspertləri "Yaxın Şərq və Cənub-Şərqi Asiya komitəsinə belə bir məsələni çatdırıblar ki, Əfqanıstan, eləcə də MDB ərazisi narkobiznesin, silah alverinin, nüvə materialları qaçaqmalçılığının "körpüləri"dir. Nəticədə, bu həyəcanlı çağırışa ABŞ prezidenti 13.129 nömrəli sərəncam verdi (Presidental Documents Executive Order 13/129).

Bilavasitə Qarabağda türk dünyasına və bilavasitə islama qarşı nüvə terrorizminə 1986-cı ildən Yerevan Fizika İnstitutunun əməkdaşı olmuş, fizika elmləri namizədi Stepan Baqdasaroviç Zmiryanın qrupu başçılıq edir. Bioloji terrorizmlə isə kimya üzrə ixtisaslaşan və uzun müddət Yerevandakı 4, 8, 12 nömrəli əczaxanalarda işləyən doktor Tamara Saakovna Lepardyan məşğul oldu. Kimyəvi və kompüter terrorizmləri isə bilavasitə DQ-nin ordu birləşmələrinin BQ-na keçirildi.

Ermənistanda "nüvə məsələləri"lə (deyək ki, mafiya ilə) məşğul olan şirkətlərə gəlincə, hələ ki, məxfi kəşfiyyat siyahılarında "Razdanmaş", "Yak-Mak Metaliz", "Arşavir", "Akopyan" (geyim istehsal edən fabriklə qarışdırmayın), "Vartaniol" şirkətlərinin adı çəkilir . "Yak-Mak Metaliz" (1947-ci ildən), "Akopyan" (1998-ci ildən) DQ-nin ərazisində özlərinin məxfi elmi-tədqiqat laboratoriyalarını da açıblar ("Vartaniol" qrupuna gəlincə, onların Naxçıvan zonasında 2010-2025-ci illər üçün nəzərdə tutduqları "Uran axtarışı proqramı" da davam edir).

"Yak-Mak Metaliz" şirkəti DQ ərazisində ötürücü və yaxud əlaqələndirici rolu icra edir. Məsələn, əldə etdiyimiz məlumata görə, 2016-cı il noyabr ayının 16-dan 20-dək bu ərazidən Ukraynadan gətirilmiş və yaxud gizli yolla əldə edilmiş raket texnologiyası üçün lazımlı olan 650 heroskopun, 146 ədəd "hərəkət-uçuş mexanizmi" sistemində istifadəsi nəzərdə tutulmuş polad örtüyün və əyləclərin yola salınmasında "Yak-Mak Metaliz" şirkəti yerli sərhəd-keçid məntəqələrinin köməyindən istifadə etmişdir (Nəzərdə Zəngilan, Cəbrayıl sərhəd-keçid məntəqələrini də saxlayın). Digər tərəfdən, Dağlıq Qarabağ ərazilərinə daşınmış "S-300" və "Tayfun" raketlərinin modernləşdirilməsi yolunda da maraqlı üçtərəfli tədqiqatlar aparılır. Və bu raket texnologiyası istiqamətində 2017-ci il iyul ayının 23-də qapalı keçirilmiş Moskva-Pekin-Yerevan danışıqları da var. Professor Kim Jen Sen (Çin) - Viktor Mixaylov (RF) - Ter-Saakyan (Ermənistan) qrupu da öz işlərini davam etdirir. Kim Jen Sen Pekində nüvə tədqiqatları, eləcə də lazer istiqamətində araşdırmalar aparan mütəxəssisdir, Çin MN-nin ETM-də çalışır. Viktor Mixaylov RF-də (Saratov şəhəri) nüvə mərkəzinin elmi mütəxəssisidir.

Araşdırmalarımıza görə, 2018-ci il iyul ayının 9-dan 12-dək qonşu dövlətlərin "Şüa" sənaye konserninin əməkdaşları da DQ ərazisində, eləcə də Yerevanda bu işlə məşğul olan şirkətlərlə əməkdaşlıq etmək üçün bu regionlarda göründülər. Çünki məlumata görə, həm Yerevanı, həm də Moskvanı lazerlər vasitəsilə güclü enerji məsələsi çox düşündürür. Onlar ABŞ mütəxəssislərinin "ABL", "Alpha", "Thel" raket texnologiyasında lazerdən istifadə proqramlarını araşdırdılar və birlikdə "High-Roer Lasers in Energy Engineering" (lazerdən güclü enerjinin alınması) proqramını irəli sürdülər. Müştərək müqavilə imzaladılar. Digər tərəfdən, 2001-ci ildə Xankəndində Moskvadakı "VPK MAPO" - ETM-in də filialı açıldı və işlərini güclü proqramla həyata keçirmək üçün "Razdanmaş" sənaye mərkəzilə (həm də şirkət) əlaqələrini qurdu. Xatırladaq ki, "VPK MAPO" mərkəzi reaktiv sərnişin təyyarələrinin layihələşdirilməsi və reallaşdırılması istiqamətində işlər görür. Məhz bu mərkəz reaktiv təyyarə mühərriklərinin istehsalı üçün 145 min ABŞ dolları dəyərində lisenziya satıb. Bu mühərrik raket texnologiyasında geniş istifadə edilir.

**(davamı növbəti saylarımızda)**

**Rövşən NOVRUZOĞLU,**
**Politoloq.**

Respublika.- 2019.- 7 avqust. S. 3.